# Ali Baş Komandan xalqa qələbə sevinci yaşatdı

## *Ordumuz sübut etdi ki, İrəvana qədər getməyə gücü və iradəsi var*

Aprelin 2-də işğalçı ordunun törətdiyi təxribat Ermənistana baha başa gəldi. Azərbaycan Silahlı Qüvvələri tərəfindən təcavüzkara layiqli cavab verildi. Milli Ordumuz birgünlük müharibədə igid oğullarının bir neçəsini itirsə də, Ermənistan matəmə büründü.









Düşmənin 300-dən artıq canlı qüvvəsi, onlarca zirehli texnikası Azərbaycan torpaqlarında məhv oldu. Halbuki işğalçı ölkəyə rəsmi səviyyədə mütəmadi xəbərdarlıq edilmişdi. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Ermənistana dəfələrlə etdiyi xəbərdarlığı bir daha xatırlayaq: "Əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun!". Heç bir beynəlxalq qətnaməyə məhəl qoymayan, danışıqlar prosesini qəsdən uzadan Ermənistan bu xəbərdarlığı da qulaqardına vurmaq istədi. Amma bu ona çox baha başa gəldi.

Azərbaycan Ordusunun düşmənə layiqli cavabı ölkə ictimaiyyətində böyük qürur hissi yaratdı. Ekspertlər, siyasətçilər hesab edirlər ki, erməni təxribatına verilən cavab bir daha Azərbaycan Ordusunun nəyə qadir olduğunu sübut etdi.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri **Hadı Rəcəbli** vurğuladı ki, 25 ildən çoxdur Azərbaycan işğal altında olan Dağlıq Qarabağ və ətraf rayonların geri qaytarılması üçün sülh danışıqları aparır. Bir nəticə olmasa da, Azərbaycan öz mövqeyində qalır. Ancaq işğalçı Ermənistan daim təxribatla məşğul olaraq sülh danışıqlarından boyun qaçırır. Sonuncu təxribata da verilən tutarlı cavab bir daha göstərdi ki, Azərbaycan Silahlı Qüvvələri işğal altında olan torpaqlarımızı istənilən an geri qaytarmağa qadirdir. Lakin Azərbaycan məsələni sülh yolu ilə həll etməyin tərəfdarıdır: "Dövlət başçımız daim öz çıxışlarında deyir ki, Dağlıq Qarabağ bizim əzəli yurdumuzdur və biz o torpaqlara qayıdacağıq. Son günlərin hadisəsi isə bir daha göstərdi ki, bu belə də olacaqdır".

Komitə sədrinin fikrincə, böyük bir ərazinin yenidən Azərbaycan torpaqlarına qatılması hər bir Azərbaycan vətəndaşında qürur hissi yaşadıb. Bu hadisə 1 milyondan çox qaçqın və məcburi köçkünümüzdə ata yurda qayıtmaq arzusunun tezliklə gerçəkləşəcəyindən xəbər verir.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü **Rasim Musabəyov** bildirdi ki, illərdir etdiyi cinayətlərə və işğal faktına görə heç bir təzyiqə məruz qalmayan, beynəlxalq qətnamələrə əməl etməyən Ermənistan Azərbaycanın xəbərdarlığını da boş və mənasız xəyal hesab edirdi. Ancaq etdikləri son təxribat zamanı Azərbaycanın qüdrətinin şahidi oldu və ilk döyüşdəcə məğlubiyyətini boynuna aldı. Deputat hesab edir ki, artıq Ermənistana qarşı ciddi tədbirlərin görülməsinin vaxtı çatıb: "Azərbaycan daha çox öz milli maraqları barədə düşünür və məsələni daha sərt şəkildə ortaya qoyur. Bu vəziyyət onu göstərir ki, erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılmasını daha uzatmaq olmaz. 20 ildən artıqdır gözləyirik. Ancaq Azərbaycan torpaqlarının işğal edilməsinə artıq dözə bilmir. İşğalçı Ermənistan Azərbaycan Ordusunun gücü qarşısında aciz qalacağını yaxşı bilir. Ona görə yenə də havadarlarına güvənir, işğalçıya yenə də dəstək olan qüvvələr öz köməyini əsirgəmir. Onların kifayət qədər havadarları var. Ancaq həmin qüvvələr işğalçı ölkənin qanunlara, qətnamələrə zidd hərəkətlərinə görə açıq dəstək ola bilmirlər. Çünki başqasının torpağını işğal ediblər. Müharibə Azərbaycan torpaqlarında gedir. Ermənilər isə Azərbaycan Ordusunun həmlələrinə cavab olaraq kimlərdənsə kömək istəyirlər. Həmin qüvvələr də çox güman ki, onlara hansısa formada dəstək olurlar. Əgər Ermənistana "Azərbaycan torpaqlarından geri çəkil" demirlərsə, deməli, yenə də dəstəklərini davam etdirirlər. Əgər belə desələr, onda heç bir toqquşma olmaz. Azərbaycan isə öz yolu ilə davam edir. Çünki bu yol bu dövlətin haqq yoludur".

Deputatın sözlərinə görə, Ermənistanın fikri Dağlıq Qarabağ münaqişəsinin həllinin müzakirəsi deyil, məqsəd Dağlıq Qarabağ separatçılarının qondarma rejiminin müstəqil dövlət kimi tanınması ilə bağlı danışıqlar aparmaq və bunula bağlı hansısa qanun qəbul etdirməkdir. Azərbaycan heç zaman bununla razılaşmayacaq.

Milli Məclisdə Xankəndini təmsil edən deputat **Flora Qasımova** da qeyd etdi ki, bu, erməni işğalçılarının birinci və sonuncu təxribatı deyil. Hər gün cəbhə xəttində atəşkəsi pozub dinc əhaliyə, təsərrüfata, evlərə ziyan vuran erməni silahlı qüvvələrinin hərəkətini dünya izləyir. Lakin indiyə qədər işğalçı ölkəyə qarşı heç bir sanksiya tətbiq edilməyib: "BMT-nin 4 qətnaməsini yerinə yetirməkdən boyun qaçıran Ermənistan Azərbaycanla danışıqlar masasına oturmur. Çünki bilir ki, işğal etdiyi torpaqlar Azərbaycan torpağıdır, onu geri qaytarmalıdır. Azərbaycan dövləti nə qədər səbir etməlidir? Artıq yetər! 1 milyon qaçqın və məcburi köçkün öz doğma yurduna qayıtmalıdır! Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev dəfələrlə işğalçıya xəbərdarlıq edərək dedi ki, işğal etdiyin torpaqdan çəkilməyənə qədər itkilər verəcəksən".

Deputat daha sonra qeyd etdi ki, aprelin 2-də erməni işğalçılarının növbəti təxribatına cavab verən Azərbaycan Ordusu Azərbaycan xalqına sevinc hissi yaşatdı: "Bir gün ərzində düşmənə vurulan zərbə, qazanılan qələbə xalqın döyüş əzmini artırdı. Bizlərə bu qürur hissini yaşatdığına görə, Xankəndi sakini kimi cənab Prezidentə minnətdaram. Torpaqlarımızın azadlığı uğrunda şəhid olan hərbçilərimizin ailələrinə, yaxınlarına başsağlığı verirəm. Hər şey göz önündədir. Qüdrətli Azərbaycanın güclü ordusu düşməni istənilən vaxt məhv etməyə qadirdir".

Milli Məclisdə Ağcabədi və Füzuli rayonlarını təmsil edən deputat **Aqil Abbası** narahat edən isə erməni təxribatı ilə bağlı beynəlxalq təşkilatların sərgilədiyi mövqedir. Deputat deyir ki, hər gün Ermənistan tərəfi cəbhə boyu atəşkəsi pozur, dinc əhaliyə atəş açırdı. Bununla bağlı rəsmi şəkildə məlumatlar da yayılırdı. Bəs, nəyə görə beynəlxalq təşkilatlar, ölkələr səslərini çıxarıb ermənilərə demirdilər ki, niyə dinc əhaliyə atəş açırsınız? Amma indi həmin ölkələr və təşkilatlar cəbhədə baş verənlərə görə bir-birinə qarışıb və Azərbaycanı bu məsələdə təmkinli olmağa çağırırlar.

Artıq bütün dünya Azərbaycan Ordusunun gücünü gördü: "Azərbaycan Ordusunun öz torpaqlarını düşməndən azad etməsi, bəzi qurumları narahat edir. Görünür, onlar ordumuzun bu qədər qüvvətli olmasından xəbərdar deyildilər. İndi onlara bəlli oldu ki, ordumuzun İrəvana qədər getməyə gücü və qüdrəti çatar. Cəmiyyətimizdə, eləcə də əsgərlərimizdə böyük ruh yüksəkliyi var. Əvvəllər bizim üçün çətin idi. Çünki ölkəmiz döyüş sursatlarını xarici ölkələrdən alırdı. Lakin sonradan ölkəmizdə Müdafiə Sənayesi Nazirliyi yaradıldı və hazırda Azərbaycan özünü təmin edə biləcək silah-sursat buraxır, hətta istehsal etdiyimiz silahları xaricə satmağa başlamışıq. Azərbaycan pilotsuz təyyarələr istehsal edir. Artıq bizim bu məsələdə heç kimə ehtiyacımız yoxdur".

Ermənistanın cəbhədə baş verənlərlə əlaqədar yalan informasiyalar yayması ilə bağlı fikirlərini də bildirən deputat dedi ki, müharibə vəziyyətində hər zaman yalan informasiyalar olur. Ermənilərin bu cür addımlara əl atmaları gözlənilən idi. Onlar hətta öz meyitlərinin şəkillərini çəkib saytlarda, sosial şəbəkələrdə bizim şəhidlərimiz kimi təqdim edirlər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***